# Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında

# Azərbaycan Respublikasının Qanunu

## *I fəsil. Ümumi müddəalar*

### *Maddə 1. Qanunun məqsədi*

Bu Qanun Azərbaycan Respublikasında əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti ilə bağlı ictimai münasibətləri tənzimləyir.

### *Maddə 2. Əsas anlayışlar*

Əcnəbilər — Azərbaycan Respublikasının vətəndaşı olmayan və başqa dövlətin vətəndaşlığına mənsub olan şəxslərdir.

Vətəndaşlığı olmayan şəxslər — Azərbaycan Respublikasının vətəndaşı olmayan və başqa dövlətin vətəndaşlığına mənsub olmayan şəxslərdir.

*İmmiqrasiya — «İmmiqrasiya haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına müvəqqəti və ya daimi yaşamağa gəlməsi.*

*İmmiqrant — «İmmiqrasiya haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasına gələn əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər.*

Azərbaycan Respublikasına digər qanuni əsaslarla (turizm, şəxsi işi ilə bağlı, xidməti ezamiyyətə gəlmiş və sair bu kimi müvəqqəti xarakter daşıyan hallarla əlaqədar gəlmiş, *immiqrant statusu olmayan*) gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında müvəqqəti olan hesab edilirlər.

### *Maddə 3. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında qanunvericilik*

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti Azərbaycan Respublikasının Konstitusiyası, bu Qanun, «Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında» Azərbaycan Respublikasının Qanunu, *«İmmiqrasiya haqqında» Azərbaycan Respublikasının Qanunu* və bu Qanunlara müvafiq qəbul edilən Azərbaycan Respublikasının digər qanunvericilik aktları, habelə Azərbaycan Respublikasının iştirakçı olduğu beynəlxalq müqavilələri ilə müəyyən edilir.

### *Maddə 4. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyətinin əsasları*

Azərbaycan Respublikasının Konstitusiyası, bu Qanun, Azərbaycan Respublikasının digər qanunları və Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələri ilə digər qaydalar müəyyən edilməyibsə, əcnəbilər və vətəndaşlığı olmayan

şəxslər Azərbaycan Respublikası vətəndaşları ilə bərabər bütün hüquqlardan və azadlıqlardan istifadə edirlər və bütün vəzifələri yerinə yetirirlər.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının milli mənafeyinə zidd olmamalıdır. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının, Konstitusiyasının, Azərbaycan Respublikasının qanunlarının və digər qanunvericilik aktlarının tələblərinə riayət etməli, Azərbaycan xalqının adət və ənənələrinə hörmət etməlidirlər.

Xarici dövlət onun ərazisində Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqlarının həyata keçirilməsinə məhdudiyyət qoyduqda Azərbaycan Respublikasının qanunu ilə Azərbaycan Respublikasının ərazisində eyni məhdudiyyətlər həmin dövlətin vətəndaşları üçün müəyyən edilə bilər. Belə qanun onun qəbul edilməsinə əsas olan hallar aradan qaldırıldıqda ləğv olunur.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər onların sosial və əmlak vəziyyəti, irqi və milli mənsubiyyəti, cinsi, dili, dinə münasibəti, fəaliyyətinin növü və xarakterindən və digər hallardan asılı olmayaraq Azərbaycan Respublikasında qanun və məhkəmə qarşısında bərabərdirlər.

Azərbaycan Respublikası ərazisindəki əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqları yalnız Azərbaycan Respublikası Konstitusiyasının 69-cu maddəsinin 2-ci hissəsində müəyyən edilmiş qaydada məhdudlaşdırıla bilər.

### *Maddə 5. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası ərazisində* **müvəqqəti və ya daimi yaşamaları** *və müvəqqəti olmaları*

*Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər immiqrasiya kvotalarına riayət olunmaqla «İmmiqrasiya haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada immiqrasiyaya icazə aldıqda Azərbaycan Respublikasına daimi və ya müvəqqəti yaşamağa gələ bilərlər və bu halda immiqrant statusu alırlar.*

*Kvotadan kənar immiqrant statusu aşağıdakı şəxslərə verilə bilər:*

- Azərbaycan Respublikasının vətəndaşları ilə yaxın qohumluğu olduqda;
- Azərbaycan Respublikasında daimi yaşayan şəxslə nigahda olduqda;
- Azərbaycan Respublikasının qanunları ilə nəzərdə tutulmuş digər hallarda.

*İmmiqranta müvafiq icra hakimiyyəti orqanı tərəfindən onun statusunu təsdiq edən sənəd verilir.*

*Azərbaycan Respublikasına yaşamağa gələn immiqrant (onun ailə üzvləri) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada qeydiyyata alınır.*

Digər qanuni əsaslarla Azərbaycan Respublikasının ərazisində olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında müvəqqəti olan hesab edilirlər.

Azərbaycan Respublikası ərazisində müvəqqəti olan əcnəblər və vətəndaşlığı olmayan şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada qeydiyyata alınmalıdır və onlar üçün müəyyən olunmuş müddətlər qurtardıqdan sonra Azərbaycan Respublikasını tərk etməlidirlər.

*Şəxsiyyətini müəyyən etmək mümkün olmayan əcnəbi və ya vətəndaşlığı olmayan insan alveri qurbanlarına Azərbaycan Respublikasında yaşamaq hüququ verilə bilməz. Belə şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılması üçün tədbirlər görülür.*

### Maddə 6. Siyasi sığınacaq verilməsi

Azərbaycan Respublikasının Konstitusiyasına və qanunvericiliyinə müvafiq olaraq Azərbaycan Respublikası əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə siyasi sığınacaq verir.

### Maddə 7. Qaçqın statusu verilməsi

Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə «Qaçqınların və məcburi köçkünlərin *ölkə daxilində köçürülmüş şəxslərin* statusu haqqında» Azərbaycan Respublikası Qanunu və Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələri ilə müəyyən olunmuş qaydada qaçqın statusu verilə bilər.

### Maddə 8. Azərbaycan Respublikası vətəndaşlığının əldə edilməsi

Azərbaycan Respublikasının Konstitusiyası və «Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikası vətəndaşlığı əldə edə bilərlər.

## II fəsil. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqları, azadlıqları və vəzifələri

### Maddə 9. Toxunulmazlıq hüququ

Azərbaycan Respublikası ərazisində olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına müvafiq olaraq şəxsi toxunulmazlıq və mənzil toxunulmazlığı hüquqları vardır.

Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş qaydada tutulmuş, yaxud həbs olunmuş əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə bu hərəkətlərə səbəb olan hallar və onların hüquqları haqqında dərhal məlumat verilməlidir.

Əcnəbini və Azərbaycan Respublikasında müvəqqəti olan vətəndaşlığı olmayan şəxsi tutmuş, yaxud həbs etmiş orqan və vəzifəli şəxs bu haqda dərhal Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə məlumat verməlidir.

### Maddə 10. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası ərazisində hərəkət etmək və yaşayış yeri seçmək hüququ

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının ərazisində hərəkət edə və yaşayış yeri seçə bilərlər.

Hərəkət etməyə və yaşayış yeri seçməyə məhdudiyyətlərə ancaq Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş qaydada yol verilir.

### *Maddə 11. Əmək hüququ*

Azərbaycan Respublikasının qanunvericiliyi və Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələri ilə digər qaydalar müəyyən olunmayıbsa, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər əmək münasibətlərində Azərbaycan Respublikasının vətəndaşları ilə eyni hüquqlardan istifadə edir və eyni vəzifələri daşıyırlar.

Azərbaycan Respublikasına müəyyən müddət əmək fəaliyyəti ilə məşğul olmaq üçün gəlmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər əmək fəaliyyəti ilə müəyyən olunmuş qaydada məşğul ola bilərlər.

Müəyyən vəzifələr tutmaq, yaxud müəyyən fəaliyyət növləri ilə məşğul olmaq Azərbaycan Respublikası vətəndaşlığı ilə şərtləndirildiyi hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər belə vəzifələr tuta və belə fəaliyyətlə məşğul ola bilməzlər.

### *Maddə 12. İnvestisiya və sahibkarlıq fəaliyyəti hüququ*

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada investisiya və sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilərlər. Bu halda onlar, Azərbaycan Respublikası qanunları ilə digər qaydalar nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları üçün müəyyən olunmuş hüquqlardan istifadə edirlər və vəzifələri daşıyırlar.

### *Maddə13. Nigah hüququ və ailə münasibətləri*

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikası vətəndaşları və digər şəxslərlə nigah bağlaya və bağladıqları nigahı ləğv edə bilərlər.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər nigah və ailə münasibətlərində Azərbaycan Respublikası vətəndaşları ilə eyni hüquqlara malikdirlər və eyni vəzifələri daşıyırlar.

### *Maddə 14. İstirahət hüququ*

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikası vətəndaşları ilə eyni əsaslarla istirahət hüququndan istifadə edirlər.

### *Maddə 15. Sağlamlığın qorunması hüququ*

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının qanunvericiliyi və Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələri ilə nəzərdə tutulmuş qaydada sağlamlığın qorunması hüququ vardır.

### *Maddə 16. Sosial təminat hüququ*

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi və Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələri ilə nəzərdə tutulmuş qaydada sosial təminat hüququndan istifadə edirlər.

Pensiya təyin edilməsi üçün müəyyən iş stajı tələb olunduqda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının qanunvericiliyi və Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələri ilə nəzərdə tutulmuş qaydada xaricdəki fəaliyyətləri iş stajına hesab edilə bilər.

### *Maddə 17. Mənzil hüququ*

Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının qanunları ilə digər qaydada müəyyən edilməyibsə, Azərbaycan Respublikasının vətəndaşları üçün müəyyən edilmiş əsaslarla və qaydada dövlət, idarə və ictimai fondlarından mənzil almaq hüququ vardır.

### *Maddə 18. Vicdan azadlığı*

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının vətəndaşları ilə eyni əsaslarla vicdan azadlığı təmin edilir.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən dini təbliğat aparılması qadağandır.

### *Maddə 19. Təhsil hüququ*

Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının vətəndaşları ilə eyni əsaslarla təhsil hüququna malikdirlər. Başqa əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün, Azərbaycan Respublikasının qanunları ilə və Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələri ilə başqa qaydalar nəzərdə tutulmayıbsa, *təhsil (icbari ümumi orta təhsil istisna olmaqla)* pulludur.

### *Maddə 20. İctimai birliklərdə iştirak etmək hüququ*

Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, Azərbaycan Respublikasının qanunları ilə və müvafiq birliklərin nizamnaməsi ilə digər qaydalar nəzərdə tutulmayıbsa, ictimai birliklərə Azərbaycan Respublikasının vətəndaşları ilə eyni əsaslarla daxil olmaq hüququ vardır.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının siyasi partiyalarının üzvü ola bilməzlər.

### *Maddə 21. Seçkilərə və ümumxalq səsvermələrinə (referendumlara) münasibət*

*Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, aktiv və passiv seçki hüququna malik deyillər.*

### *Maddə 22. Hərbi mükəlləfiyyətə münasibət*

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər hərbi mükəlləfiyyət daşımırlar.

### *Maddə 23. Əcnəbilərdən və vətəndaşlığı olmayan şəxslərdən vergi və rüsum tutulması*

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərdən vergi və rüsumlar tutulması Azərbaycan Respublikasının qanunları və Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələri əsasında həyata keçirilir.

## *III fəsil. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin məsuliyyəti*

### *Maddə 24. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin məsuliyyətinin əsasları*

Azərbaycan Respublikası ərazisində cinayət, ictimai və digər hüquqpozma törətmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

### *Maddə 25. Azərbaycan Respublikasında olma və tranzit keçidi qaydalarının pozulmasına görə məsuliyyət*

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olma qaydalarını pozduqları hallarda:

- Azərbaycan Respublikasında *yaşama hüququ verən sənədlər olmadan yaşadıqda* ;
- Azərbaycan Respublikasında etibarsız sənədlər əsasında yaşadıqda;
- qanunvericiliklə müəyyən edilmiş *bir yerdən başqa yerə getmə*, yaşayış yeri seçmə və qeydiyyat *və ya yazılma* qaydalarına riayət etmədikdə;
- işə düzələrkən müəyyən edilmiş qaydaları pozduqda;
- olma müddəti qurtardıqdan sonra Azərbaycan Respublikası ərazisini vaxtında tərk etmədikdə;
- Azərbaycan Respublikası ərazisindən tranzit keçidi qaydalarına əməl etmədikdə — Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

### *Maddə 26. Azərbaycan Respublikasında əcnəbilərin vətəndaşlığı olmayan şəxslərin olma müddətlərinin qısaldılması*

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərini pozan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olma müddətləri qısaldıla bilər.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında daimi olma müddətlərinin qısaldılması haqqında qərarı müvafiq dövlət orqanları qəbul edir.

### *Maddə 27.* **İmmiqrant statusu olmayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılması**

Milli təhlükəsizliyin təmin olunması, ictimai asayişin mühafizəsi, əhalinin səhhəti, hüquqları və mənafelərinin qorunması zəruriliyi olduqda və həmçinin Azərbaycan Respublikasının *immiqrant statusu olmayan* əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında qanunvericiliyinin tələbləri kobud surətdə pozulduqda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər *qanunvericilikdə müəyyən edilmiş qaydada* müvafiq *məhkəmənin (hakimin)* qərarına əsasən Azərbaycan Respublikası hüdudlarından kənara çıxarıla bilər.

*İmmiqrant statusu olmayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılması Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada həyata keçirilir.*

*İmmiqrant statusu olmayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılması haqqında qərarda müəyyən olunmuş müddətdə Azərbaycan Respublikasının ərazisini tərk etməlidirlər.* Azərbaycan Respublikası ərazisini tərk etməkdən boyun qaçıran *immiqrant statusu olmayan* əcnəbi və vətəndaşlığı olmayan şəxs, *müvafiq məhkəmənin (hakimin) qərarı əsasında* tutulur və məcburi qaydada Azərbaycan Respublikası hüdudlarından kənara çıxarılır. *İmmiqrant statusu olmayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılması haqqında qərardan məhkəməyə şikayət verilə bilər.* Şikayət verilməsi qərarın icrasını dayandırmır.

*Müəyyən edilmiş qaydalara əsasən Azərbaycan Respublikası hüdudlarından kənara çıxarılmalı olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər məcburi dövlət daktiloskopik qeydiyyatından keçməlidirlər.*

*Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 52-ci maddəsinə müvafiq olaraq əcnəbi və vətəndaşlığı olmayan şəxs Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarıla bilər.*

*İmmiqrant statusu olmayan əcnəbi və ya vətəndaşlığı olmayan şəxs insan alverindən zərər çəkmiş şəxs hesab olunduqda, onun barəsində 1 il müddətində Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma tətbiq edilmir. Bu müddət başa çatdıqda, lakin əcnəbi və ya vətəndaşlığı olmayan şəxs insan alveri ilə bağlı cinayət işləri üzrə cinayət təqibi orqanlarına yardım göstərdikdə, həmin şəxs barəsində Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma cinayət təqibi başa çatanadək tətbiq olunmur. İnsan alverinin qurbanı olan uşaqlar barəsində Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma tətbiq olunmur.*

### *Maddə 27-1. İmmiqrantın Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılması*

*İmmiqrantın Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılması «İmmiqrasiya haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada həyata keçirilir.*

## *IV fəsil. Yekun müddəaları*

### *Maddə 28. Beynəlxalq müqavilələr*

Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələrdə bu Qanunda müəyyən edilmiş qaydalardan fərqli qaydalar müəyyən edildikdə beynəlxalq müqavilələrin qaydaları tətbiq edilir.

### *Maddə 29. Diplomatik immunitetə və imtiyazlara malik olan şəxslər barəsində bu Qanunun tətbiqi*

Bu Qanun Azərbaycan Respublikası qanunları və iştirakçısı olduğu beynəlxalq müqavilələri əsasında diplomatik immunitetə və imtiyazlara malik olan şəxslərin hüquqlarına toxunmur.

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV***

***Bakı şəhəri, 13 mart 1996-cı il***

***№ 41-IQ***

***Azərbaycan Respublikasının Qanunvericilik Toplusunda dərc edilmişdir (31 iyul 1997-ci il, № 1, maddə 19) («VES Consultancy» LLC).***

***5 oktyabr 2001-ci il tarixli, 183-IIQD nömrəli; 12 oktyabr 2001-ci il tarixli, 203-IIQD nömrəli; 12 oktyabr 2001-ci il tarixli, 207-IIQD nömrəli; 26 aprel 2002-ci il tarixli, 313-IIQD nömrəli; 4 iyun 2002-ci il tarixli, 339-IIQD nömrəli; 30 dekabr 2003-cü il tarixli, 568-IIQD nömrəli; 30 dekabr 2003-cü il tarixli, 569-IIQD nömrəli; 30 dekabr 2005-ci il tarixli, 51-IIIQD nömrəli; 27 fevral 2007-ci il tarixli, 251-IIIQD nömrəli qanunlara əsasən dəyişikliklər və əlavələrlə («VES Consultancy» LLC).***

*© VES Consultancy LLC*